**MƏTBUAT ÜÇÜN AÇIQLAMA**

# ATİB-İN ÜMUMİ YIĞINCAĞININ İCLASI KEÇİRİLDİ

**No: 09/18/97**
**07.04.2009**

Azərbaycan Türkiyə İş Adamları Birliyinin (ATİB) ofisində Təşkilatın Ümumi Yığıncağının növbəti iclası keçirildi.

İclas Azərbaycan Respublikasının Ümummilli Lideri Heydər Əliyev, Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürk və hər iki ölkə şəhidlərinin ruhuna hörmət əlaməti ilə olaraq bir dəqiqəlik sükutla başladı.

Prosedura uyğun olaraq Ümumi Yığıncağın iştirakçıları tərəfindən iclasın sədri və katiblər seçildi, həmçinin iclasın gündəliyi təsdiq edildi.

Gündəliyə uyğun olaraq ATİB İdarə Heyəti sədrinin müavini Cemal Yangın İdarə Heyətinin 2008-ci il üzrə hesabatını iclas iştirakçılarına təqdim etdi. C.Yangın çıxışında ATİB-in iş adamlarını birləşdirən təşkilat olmasına baxmayaraq geniş ictimai fəaliyyətinə də münasibət bildirdi: ”Siyasi sabitlik olmayan yerdə iş qurmaq mümkün deyildir. Hər bir iş adamı sabitlik və təhlükəsizlik istəyir. Bu baxımdan da ATİB regiondakı və dünyadakı gedişatlara münasibət bildirməyi özünə borc hesab edir”. İllik hesabat Ümumi Yığıncaq iştirakçıları tərəfindən yekdilliklə qəbul edildi.

ATİB Baş katibi Rəşad Rəsullu İdarə Heyətinin sədri Ahmet Erentokun tədbir iştirakçılarına müraciətini səsləndirdi. Ahmet Erentok Azərbaycan Türkiyə Amerika Fondunun (ATAF US) çalışmaları ilə bağlı olaraq hazırda Vaşinqtonda işgüzar səfərdə olduğunu bildirmişdir: “Aprel ayında qondarma “erməni soyqırımı” məsələsi Konqresdə müzakirə ediləcəkdir. Hazırda bu iddianı təsdiqləyəcəyi gözlənilən konqresmenlərlə görüşlər keçirirəm və onların niyə bu iddiaya “hə” dediklərini öyrənməyə çalışıram.”

ATİB Təftiş Komissiyasının sədri Xəyal Məmmədxanlı 2008-ci il üçün maliyyə hesabatını təqdim etdi və hesabat iclas iştirakçıları tərəfindən təsdiqləndi.

Daha sonra R.Rəsullu Təşkilatın 2009-2013-cü illər üçün strategiyası sənədini təqdim etdi: “Əsas hədəfləmizdən biri Azərbaycanın qeyri-neft sektoruna investisiya yönəldilməsi, eləcə də kiçik və orta sahibkarlığın inkişafının həyata keçirdiyimiz fəaliyyətlər vasitəsi ilə dəstəklənməsidir.”

İclas zamanı həmçinin ATİB üzvləri üçün hazırlanmış “Etik Kodeks” və ATİB üzvləri ilə Birlik arasında “Üzvlük haqqında müqavilə” təsdiq edildi.

İclasda Təftiş Komissiyasına yeni üzvlər seçildi və tərkib aşağıdakı kimidir:

1. Kenan Köse (AKAT Inşaat MMC) – Təftiş Komissiyasının sədri
2. Kamran Mehdizadə (Mixaylo KM) –Təftiş Komissiyasının üzvü
3. Pərviz Məmmədov (“CLC” MMC) - Təftiş Komissiyasının üzvü

İclas iştirakçıları həmçinin nizamnaməyə əlavə və dəyişiklikləri; ATİB-in 2009-cu il üçün ştat cədvəli və büdcəsini təsdiq etdilər.

Əlaqə informasiyası:
Tel.: (+994 12) 449 88 82 / 83; Faks: (+ 994 12) 449 88 84; e-mail: pr@atib.az

**Mətbuat üçün açıqlamadan istifadə edərkən**
**ATİB-in İctimaiyyətlə Əlaqələr Şöbəsinə istinad edilməsi vacibdir**